# Vətən sevgisi



***Həvva* Adəmsoy *VASALOVA,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Nəbi Mülkümovun "Vətən sevgisi" kitabını əlimə alanda bu kitabdan qızılgül ətrini, bənövşə qoxusunu, şəlalə səsini duydum. Mətndə əzəmətli Zaqatala dağlarının vüqarını gördüm. Şəhid qanında bitən Xarıbülbülün niskilli baxışlarını gördüm. Şəhid analarının fəryadını duydum bu kitabdan.

Həmişə düşünmüşəm ki, insanlar doğulduqları yerə, yurda çox bənzəyirlər. Hər kəsə yaxşı məlumdur ki, Zaqatala dağları necə əzəmətlidir. Bu yerlərin zümrüd meşələri gözümüzü oxşayır, könlümüzə çox xoş duyğular bəxş edir. Florası, faunası çox zəngin olan dağlarımızı, eləcə də gözəllər gözəli Zaqatala şəlaləsini görənlər onu heç vaxt unutmurlar. Bu, təbiət zənginliyi, deyərdim ki, həm də insanların ruhuna, varlığına hopur. Bizim N.Mülkümov da elə yerimiz, yurdumuz kimi, təbiətimiz kimi qəlbən çox zəngindir. Şəxsi keyfiyyətləri ilə insanlar arasında həmişə seçilib. Zaqatalada yaxşı tanınan, Azərbaycanda da az-çox haqqında hörmətlə danışılan Nəbi Mülkümov ədəbi yaradıcılığa gənclik illərindən başlayıb. "Vətən sevgisi" kitabına ön söz yazan pedaqogiya elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatı Həşim İsmayılov oxuculara ilkin məlumat verərək onun haqqında qeyd edir: "Bu gün də Zaqatalada onlarca söz ustası yazıb-yaradır. Onların içərisində Nəbi Mülkümov (təxəllüsü Nəbi Mülk) öz fərdi üslubu, bədii təsvir və ifadə vasitələrindən istifadə məharəti ilə digərlərindən xüsusilə fərqlənir. Oxuculara təqdim olunan bu kitab istedadlı şair Nəbi Mülkün ilk kitabıdır. Şeirə, sənətə, sözə, poeziyaya yüksək qiymət verən Nəbi Mülkümov 40 ildən artıq bədii yaradıcılıqla məşğul olsa da, ilk kitabını məhz ömrünün və yaradıcılığının kamilliyi dövründə çıxarmağı qərara almışdır. Bu, onun bir insan və şair kimi yüksək tələbkarlıq və məsuliyyətindən xəbər verir. Nəbi Abdurahman oğlu Mülkümov 1 avqust 1959-cu ildə Zaqatala rayonunun Suvagil kəndində əməkçi ailəsində anadan olmuşdur". Bəri başdan onu da qeyd edim ki, Nəbi Mülkümovun atası Abdurahman kişi, anası Sona xanım neçə övlad böyüdüb araya-ərsəyə gətirib. Həmişə deyirəm ki, hər bir ata-ana üçün Vətənə ən böyük xidmət ağıllı, halal zəhmətlə yaşayan övladlar böyütməkdir. Onu da deyim ki, elə Nəbi Mülkümovun özü də ləyaqətli ailənin başçısıdır. İki övlad atası, dörd nəvənin babasıdır. Oğlanları atalarının halal zəhmət yolunu şərəflə davam etdirirlər. O, özü necə zəhmətlə böyüyübsə, eləcə övladlarını da halal zəhmətə alışdırıb. Abdurahman iqtisadçıdır, ixtisası üzrə çalışır, Arzuman isə sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Bütün bunlar öz yerində. Nəbi Mülkümovun uzun illər ərzində yazıb-yaratdıqları ayrı-ayrı mətbuat orqanlarında çap olunub. "Zaman", "Zaqatala", "Nəbz", "Nur" qəzetlərində onun haqqında təhlili yazılar verilib, şeirləri oxuculara çatdırılıb.

Nəbi Mülkümov fəal ədəbi fəaliyyətlə məşğul olduğu kimi, ictimai fəaliyyəti ilə də həmişə ictimaiyyəti cəlb edib. Onun camaat arasında mövqeyini haqqında yazılanlar, deyilənlər kifayət qədər göstərir. 2008-ci ildə "Saxurlar" sənədli filmində Nəbi Mülkümovun da geniş portreti öz yerini alıb. O, yerli televiziyada da həmişə çıxış edir, lirik şeirlərini oxuyur:

Təkcə qızılgüllər deyil,
Bütün güllər sevmiş məni.
Yazın ilkin çağındaca,
Açıb sevindirmiş məni!

Gül aynanı qucaqlayıb,
Ordan boylanmaq istəyir.
Qoxusu özündən də tez,
Otağa dolmaq istəyir!

Pəncərəmi açanda mən,
Qəfil əlimdən tutdu o.
Üzündəki göz yaşını
Məni görcək unutdu o!

Bu şeir elə bil ki, təbiətə vurğun bülbülün dilindən deyilib. Deyim ki, Nəbi Mülkümovun belə şeirləri bizim gənclərin dilində şirin nəğmələr kimi oxunur.

Onu da qeyd etməliyəm ki, Nəbi Mülkümov həm də təbiət vurğunudur. Zaqatalaya yolu düşənlər yaxşı bilir ki, burada hər dərədən bir çay axır. Çaylar bizim yerin, yurdun şərəfinə sanki nəğmələr oxuyurlar. Görünür, elə bu səbəbdən Nəbi Mülkümov da dağ çaylarını tərənnüm edir. Təbiətin bu ecazkar varlıqlarını sevgi ilə misralara gətirir:

Tanrıya əl açmış boz ağacların,
Altından ilan kimi qıvrıla-qıvrıla
Dağ çayı axırdı.

Boz ağacda boz sərçələr
Bülbül kimi ötürdü.
Səsi aləmi bürüyüb
Heç biri də görünmürdü!

Qış günəşinin şəfəqlərində
Çay polad rəngində parıldayırdı.
Kiminsə dərdini, ya sevincini
Çiynində götürüb hey... aparırdı.

Bitirdiyi al-əlvan, gözəl güllərlə,
Çəmənləri daim yaşatmaq üçün.
Axırdı dağ çayı böyük sürətlə
Hər yerdə xalçalar toxumaq üçün!

Bu şeirdə mənim diqqətimi çəkən təbiətin bənzərsiz anlarının təsviridir. Nə gözəl deyir. Dağ çayı ona görə axır ki, həyat verdiyi torpaqlarda əlvan xalçalar toxusun. Doğrudan da əgər dağ çayları olmasaydı, düzlərin heç yaşıl xalıları da olmazdı.

Nəbi Mülkümov kitabının sonunda həyat təəssüratlarını da verib: "Bəzən soruşurlar ki, xoşbəxtsənmi və ya həyatından razısanmı? Bu suallara cavabım həmişə birmənalı olub; keçdiyim həyat yollarına baxanda uşaqlığımdan da, gəncliyimdən də və sonrakı həyatımdan da incik deyiləm, çoxlu maraqlı xatirələrim var. Demək olmaz ki, hər şey düz xəttli və rahat olub. Mən də digər yaşıdlarım kimi, həyatın enişli-yoxuşlu yolları ilə irəliləmişəm". Həqiqətən Nəbi Mülkümov çətin yollar keçib. Keçmiş sovet məkanını da dolaşıb. Ancaq mənəvi rahatlığını doğma el-obasında tapıb. Təsadüfi deyil ki, onun bütün şeirlərinin məğzində doğma təbiətin tərənnümü var. Tanıdığı insanların zəngin mənəvi aləmlərini sevə-sevə sözə gətirməyi özünə borc bilib.

"Vətən sevgisi"ndə vətənim Zaqatalanın hər qarışını, Suvagil dərəsini, möhtəşəm Zaqatala şəlaləsini, şairin sevimli ailəsini kino lenti kimi gözümün önündən keçirdim. Bu kitabda mən könüllü cəbhəyə gedib xariqələr qazanan igid, mərd oğullarımızı, boynu bükük şəhid analarının niskilli baxışlarını gördüm. İşğaldan azad olunmuş müqəddəs Qarabağ torpağının rahat, azad nəfəs aldığını duydum. Mən Saxur xalqının mərd, alicənab, dili sözsöhbətli, ürəyi nəğməli oğlu Nəbi Mülkümov haqqında çox-çox eşitmişdim.




Bir gün təsadüfən onunla görüşdüm. Gözəl şeir demək qabiliyyəti var idi. Şeir özü də çox gözəl idi. Çox bəyəndim. Mətbuatda çıxan çoxlu sayda şeirləri var idi. Hətta türk mətbuatında çıxanı da. Amma hələ kitabı çıxmamışdı. Dedim ki, el oğlu, yazılan yadigar qalır. Məşhur deyimi belə də ifadə etmək olar: "Yazmadım özüm qalam, yazdım ki, izim qala". İllər ötür, biz bu gün varıq, sabah isə yox. Kitabınız isə gələcək nəsillərə yadigar qalacaq. Aradan bir neçə ay keçmişdi, bir gün məni görcək o sevinclə "Həvva xanım, şeirlərim artıq işıq üzü görür, bu günlərdə sizə göndərəcəm kitabımı". Mən də onun sevincinə qoşuldum: "Təbrik edirəm, el oğlu, axarlı olsun". Bu an bədahətən ürəyimdən bu sözlər süzüldü.

Gözlərinin rəngi necə?
Saçlarının ətri necə?
Əli, ayağı, düzmü?
Sevəcəyimmi onu görüncə?

"Vətən sevgisi" kitabının araya-ərsəyə gəlməsində əməyi, zəhməti olan, "Ön söz" yazan pedaqogika üzrə fəlsəfə doktoru, AJB-nin üzvü, "Qızıl qələm" mükafatı laueratı, Həşim İsmayılov haqqında şairin yazdığı şeir könül açır:

Hər kitabın bir tarixi xəzinə,
Zərrə-zərrə düşdün onun izinə.
Dik baxırsan həqiqətin üzünə,
Yaşa, Şəki, yaşa Həşim müəllim.

Atom qorxulu, silah qorxulu gecələri yuxusuz, gündüzləri narahat bir dövrdə yaşayırıq. Qələbə sevincini yaşasaq da, ürəyində, beynində qəlbə gəzdirən, əlləri, ayaqları olmayan, canının parçasını torpaq üçün fəda edən qazilərimizi görəndə kimin ürəyi sızlamır, kimin ürəyi qan ağlamır ki? Onlara kömək etmək üçün çırpınırsan, əlindən bir şey gəlməyəndə də bu mühitə, bu zəmanəyə nifrət edirsən.

Qoymayın, düymələr basıla bilər,
Atom qorxusu var, bu gün dünyada.
Qəlpələr gəzdirir hələ sinələr,
Yaramız göynəyər, salmayın yada.

Qar kimi ağappaq saçlı, qapqara paltarlı boynu bükük şəhid analarını yolda, izdə görəndə kimin ürəyi sızlamır, ağlamır?

Bir də zərif çiyinlərində oğlunun tabutunu daşıyan ananın üzündəki kədərini kim unudar, kim?!

Şəhid zirvəsinə qalxan igidlər,
Yeriniz Allahın dərgahındadır.
Şanlı tarixləri yazan igidlər,
Adınız ölməzlər sırasındadır.

Ana! Qurani Kərimdə deyilir: "Cənnət anaların ayaqları altındadır". Böyük Hüseyn Cavid isə deyir:

Ana günəşdir,
Cocuqsa Aydır, Ay...

Ana - məhəbbətim, səadətim, sədaqətim, ibadətim, səcdəgahım ana. Ana deyəndə kimin ürəyi döyünmür, çırpınmır ki?

Oğullu-uşaqlı olsaq da indi,
İsti nəfəsinə möhtacıq, ana.
Nə qədər ecazkar mahnı olsa da,
Heç vaxt dəyişmərəm sənin laylana.

Nakam arzularını ilmə-ilmə kətana, kağıza köçürən Natəvan. Qəmli-kədərli səsi sanki qulaqlarımda səslənir. Bütün var-dövlətini, hətta atasından yadigar qalan qiymətli üzüyünü satdırıb, susuz Şuşaya su kəməri çəkdirən, məktəb tikdirən... Natəvan. Bu şeiri oxuduqca kövrək qəlbli, məlahətli, xeyirxah bir ananın, bir şairənin, bir rəssamın mələk simasını görürsən.

Qarabağın birincisi,
Mirvarisi, tək incisi,
Kövrək qəlbli, şən nəğməli,
Azərbaycan şairəsi.

Qarabağlılar onun bu yaxşılığını unutmur, onun cənazəsini Şuşadan Ağdama kimi 34 km yolu daşıyırlar. Bu gün də xan qızının bulağından su içənlər ona min rəhmət oxuyurlar.

Xeyirxah əməllərinlə,
Ürəklərdə yaşayırsan.
Susuz qalan Şuşamızı,
Sən cənnətə döndərmisən.

"Vətən sevgisi" kitabında insanın qəlbini riqqətə gətirən, titrədən sevgi şeirləri də yer alıb. "Sevgilim", "Dərdi, dərdim", "Səni düşünürəm", "Məhəbbət", "Həsrət" və başqa şeirlər.

Lalədir, Nərgizdir
Sənin baxışın.
Buludtək təmizdir,
Sənin baxışın.
Dalğalı dənizdir
Sənin baxışın.
Vuruldum ilk andan sənə, sevgilim.

Bu kitabdan gül ətri duyuram. Əzəmətli, vüqarlı, yamyaşıl, uca Zaqatala dağlarını gördüm. Müharibədən mərdmərdanə çıxmış bir xalqın əzəmətini, şəhid analarının dərdini ürəyimin ağrısı ilə sətirlərdən oxudum. Gözlərim ağlaya-ağlaya, qəlbim sızlaya-sızlaya. Qəmli Natəvanın səsini eşitdim. Xan qızı bulağından o "məlhəmli" suyu içdim.

İkinci kitabı görmək arzusu ilə bu kitabdan ayrıldım. Zaqatalamın dəyərli, qəlbi nəğməli oğlu Nəbi müəllimə bulaq suyu kimi uzun ömür, günəş şəfəqləri qədər parlaq, hərarətli, bir-birindən gözəl şeirlər arzulayaraq.

***12.10.2022***